

**Dünyada açıq dənizdə ilk dəfə neftçıxarmanın ilk istinad nöqtəsi olan əfsanəvi Neft Daşları 74 illik şərəfli yol keçib. Bu illər ərzində Xəzərin fırtınalı qoynunda nəhəng neft-qaz istehsalat müəssisəsi, dünyanı heyrətə salan qeyri-adi dəniz şəhəri yaradılmışdır. Bu bizim şanlı tariximizdir.**

# Neft Daşlarının yüksəlişində Heydər Əliyev mərhələsi

## "Möcüzələr adası"nın 30 illik uğurları ulu öndərin adı ilə bağlıdır

Neft Daşlarının salındığı ilk illərdə respublika rəhbərləri tez-tez burada olur, hasilat, quruculuq işləri ilə maraqlanır, lazımi köməklik göstərirdilər. 1960-cı il aprelin 26-da sovet rəhbəri Nikita Xruşşov da Neft Daşlarında oldu. Sonralar çox rəhbərlər, müxtəlif peşə adamları Neft Daşlarının sorağına Azərbaycana gəlməyə başladılar. Neft Daşlarının həyatında ən əlamətdar hadisə isə dahi şəxsiyyət, dünya miqyaslı siyasətçi, müasir dövlətçiliyimizin memarı və qurucusu, neftçilərin sadiq dostu Heydər Əliyevin Neft Daşlarının 25 illiyi yubileyinə gəlişidir. Bu görüşlər mərasimin iştirakçısı olmuş hər bir neftçinin yaddaşına əbədi həkk olunmuşdur.

Xatırladaq ki, bu, ulu öndərin Neft Daşlarına ilk gəlişi deyildi. Respublika rəhbərliyinə gəlişindən əvvəl, DTK-da işlədiyi dövrlərdə də dəfələrlə dəniz neftçilərin qonağı olmuşdu. 1965-ci ildə ADR rəhbəri V.Ulbrixtin, 1967-ci ilin sentyabrında Türkiyənin baş naziri Süleyman Dəmirəlin dəniz mədənlərinə səfərlərində onları Heydər Əliyev müşayiət etmişdi. 1967-ci ildə DTK-nın 50 illiyi münasibətilə keçirilən tədbirlər çərçivəsində Heydər Əliyev Neft Daşlarının qonağı oldu, müdafiə, təhlükəsizlik məsələləri ilə bağlı mühazirə oxudu, fərdi söhbətlər apardı. O, Neft Daşlarının rəhbərləri ilə görüşdü, klubda, kitabxanada, yaşayış evlərində oldu. DTK sədri neftçilərin iş şəraiti, yaşayışı, istirahəti ilə maraqlandı, gecə saat 2-yə qədər qəsəbəni gəzdi, gecə neftçilərimizin qonağı oldu.

Təsadüfi deyil ki, 1969-cu ildə Heydər Əliyev respublika rəhbərliyinə gələndə ən çox sevinənlər məhz dəniz neftçiləri olmuşdular, çünki onu yaxşı tanıyırdılar.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra ilk səfəri də Neft Daşlarına oldu. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən Heydər Əliyev plenumda iştirak edən Sov.İKP MK katibi İ.V.Kapitonov ilə birgə Neft Daşlarına səfər etdi. 1970-ci ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.V.Podqornı, SSRİ Dövlət Plan Komitəsinin sədri N.K.Baybakov və digər nazir, komitə sədrlərinin daxil olduğu nümayəndə heyəti ilə birgə Neft Daşlarına gəldi, dəniz şəhərinin inkişafı ilə bağlı dəyərli məsləhətlər verdi. Bu səfər neftçilərin məhsuldar əməyinə təkan verdi.

1969-cu il avqust plenumunda Heydər Əliyevin təklifi ilə Azərbaycan KP MK-nın neft sənayesinin inkişafını sürətləndirmək tədbirləri barədə qəbul etdiyi qərar respublikada "qara qızıl" hasilatının enmə tempinin qarşısını almaq üçün geniş proqram müəyyənləşdirdi. Geoloqlar, geofiziklər, qazmaçılar, mədənçilər qarşısında məsul vəzifələr qoyuldu, dəniz neft donanmasının genişləndirilməsi və gücləndirilməsi nəzərdə tutuldu.

Neftçilər qürurla qeyd edirlər ki, bütün bu vəzifələr Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə tam həyata keçirildi, neft sənayemiz, o cümlədən, Neft Daşları yeni inkişaf mərhələsinə qədəm qoydu. O vaxtadək Xəzərdə cəmi 30 ton yükqaldırma gücünə malik kran gəmisi mövcud idi. Bu qərardan sonra xarici ölkələrdən neft-qaz tipli yedək gəmiləri, "Atlet" tipli qaldırıcı kran gəmiləri, yeni, irihəcmli sərnişin gəmiləri alındı. Neft sənayesinin inkişafı üçün möhkəm maddi-texniki baza yaradıldı.



Ötən əsrin 70-ci illərinin ortalarından Xəzərin daha dərin qatlarında tədqiqatlar başlandı. Zığ sahəsində özüllər zavodu istifadəyə verildi. Xarici şirkətlərdən yeni texnika və avadanlığın alınması, ən əsası isə respublikada iri istehsal, emal, tikinti-quraşdırma müəssisələrinin yaradılması Xəzərdə işləri genişləndirməyə imkan verdi. "Şelf" seriyalı üzən qazma qurğularının, 3 min ton yükqaldırma gücünə malik "Azərbaycan" kran gəmisinin istismara buraxılması, Dərin Dəniz Özülləri zavodunun inşası, o zaman "Neft Daşları" NQÇİ-nin tərkibində istismar olunan "Günəşli" yatağında ilk quyuların qazılması, ilk platformanın qoyulması, daha dərin yerlərdə özüllərin qurulmağa başlanması və digər çox önəmli işlər dənizdə neft çıxarılmasında inqilab yaratdı. Bu inqilabın ilhamvericisi, bayraqdarı və əsas hərəkətverici qüvvəsi ümummilli lider Heydər Əliyev idi.

1972-ci ildə SSRİ-nin yaranmasının 50 illiyi ittifaqın hər yerində təntənə ilə qeyd olunurdu. O zaman Azərbaycanda Ukrayna günləri çərçivəsində tədbirlərdən biri də Neft Daşlarında keçirildi. Heydər Əliyev başda olmaqla böyük nümayəndə heyəti Neft Daşlarına gəldi. Ukrayna nümayəndə heyətinə Kiyev şəhər partiya komitəsinin birinci katibi rəhbərlik edirdi. Bu dostluq görüşünə nümayəndə heyətləri ailə üzvlərilə gəlmişdilər. Mərhum akademikimiz, Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım Əliyeva ilə görüşlər, səmimi söhbətlər neftçilərin ürəyincə oldu. Zərifə xanım böyük həssaslıqla neftçi qadınların problemləri, qayğıları ilə maraqlanırdı.

1975-ci ildə Azərbaycan KP MK Neft Daşlarının 25 illik yubileyinin qeyd olunması barədə qərar qəbul etdi. Bu yubiley ümumxalq bayramı kimi hər yerdə qeyd olundu. Tədbirin zirvəsi isə, təbii ki, Neft Daşlarında keçirilən misilsiz mərasim idi. Yubiley mərasimi 1975-ci il iyunun 17-də keçirildi. Respublika rəhbəri, Neft Daşlarının yüksəlişində misilsiz xidmətləri olan Heydər Əliyev və digər qonaqlar "Möcüzələr adası"na gəmi ilə gəldilər.

Gəmi meydançasında neftçilər Heydər Əliyevi böyük sevinc hissilə, gül-çiçəklə qarşıladılar. Ulu öndərlə birlikdə SSRİ neft sənayesi naziri V.A.Şaşin, respublikanın rəhbər xadimləri Qurban Xəlilov, Əli İbrahimov, Həsən Seyidov, nazirlər, dövlət nümayəndələri və əlbəttə ki, böyük incəsənət ustaları dəstəsi gəlmişdi.

Xalqımızın böyük oğlu Heydər Əliyev həmişə zəhmət adamının vurğunu olub. Daha ağır zəhmətlə məşğul olan neftçilərlə görüşlərə ulu öndər xüsusi həvəs göstərirdi. Bu dəfə də o, dərhal neftçilərin əhatəsinə düşdü, çox səmimi söhbət elədi, işləri, uğurları, problemləri, qayğıları ilə maraqlandı. İdarənin rəisi Bəhmən Hacıyev, siyasi rəhbər Neman Qasımov və həmkarlar təşkilatının sədri Mayıs Hacıyev, başqa qabaqcıllar yüksək qonaqları ilk qarşılayanlar sırasında idilər. Onlar hörmətli rəhbərimizi neftçilərin adından salamladılar, idarənin fəaliyyəti, uğurları haqda məlumat verdilər.

Həmin gün qəsəbədəki meydançada yubiley mərasimi keçirildi. Toplantıda Heydər Əliyev geniş çıxış etdi, dənizdə neftçıxarma tarixindən, neftçilərin uğurlarından ətraflı bəhs etdi. Respublika rəhbəri Neft Daşlarının zəngin təcrübəsinə əsaslanaraq Xəzərin 100 metr və daha dərin qatlarına getməkdən, "Günəşli" yatağının işlənməsi perspektivlərindən danışdı (o vaxt hələ kəşfiyyat qazması gedirdi), "Azəri" yatağının qazılması təşəbbüsünü irəli sürdü. Sonra qabaqcıllar təltif edildi. Yubiley konsert proqramı ilə davam etdi.

Ulu öndər elə oradaca yenicə özülü qoyulmuş 5 mərtəbəli yaşayış binasının tikintisini sürətləndirmək barədə əlaqədar təşkilatlara göstəriş verdi. O qeyd etdi ki, bu binalar mümkün qədər tez tikilməlidir ki, neftçilərimiz vaxtında etibarlı binalara köçürülsün. Həqiqətən, bu xeyirxah göstəriş vaxtında yerinə yetirildi və yeni yaşayış binası rəhbərin neftçilərə hədiyyəsi oldu.

Ertəsi gün yubiley təntənəsi indiki Heydər Əliyev Sarayında davam etdirildi. Tədbirə Neft Daşlarının 50 nümayəndəsi dəvət olunmuşdu. Məruzə və çıxışlarda dünyada ilk dəfə olaraq açıq dənizdə neft çıxaran Neft Daşları əməkçilərinə yüksək qiymət verildi, neft sənayemizin inkişaf etdirilməsi yolları barədə danışıldı. Bütün bu tədbirlər Heydər Əliyevin şəxsiyyətinin neftçi əməyinə verdiyi qiymətin, neftçilərə məhəbbətinin sübutu idi.

Onu da qeyd etmək yerinə düşər ki, Neft Daşlarında söylənilən bütün təklif və iradlara həssaslıqla yanaşan Heydər Əliyev bütün məsələlərin həllinə dair konkret tapşırıqlar verdi. O cümlədən, neftin sahilə boru xətti ilə nəql olunması, "Günəşli" yatağının işlənməsi, elektrik stansiyasının tikilməsi və s. önəmli məsələlər ulu öndərin köməyi ilə müsbət həllini tapdı.

Neft Daşlarının yubileyi neftçilərə Heydər Əliyev kimi dahi şəxsiyyəti, geniş mənada, daha yaxından görmək, daha yaxşı tanımaq şansı verdi. Neftçilər onun əsl qurucu, yaradıcı, millətin, xalqın gələcəyini düşünən və aydın görən bir lider olduğunu gördülər. Onun respublikaya rəhbərlik etdiyi 70-80-ci illər Neft Daşlarının ən gur inkişaf dövrü oldu. Tikinti-quruculuq işləri geniş vüsət aldı. Bu gün Neft Daşlarının ahəngdar işini təmin edən bir çox sənaye, sosial əhəmiyyətli obyektlər məhz həmin illərdə tikilmişdir. Neftçilərin mənzillə təmin olunmasında heç bir problem yox idi. Mədəni xidmətin səviyyəsinə isə yalnız qibtə etmək olardı. Respublikaya gətirilən filmlər ilk dəfə Neft Daşlarında göstərilirdi. Bir sözlə, neftçi hər cür qayğı ilə əhatə olunmuşdu. Onun problemləri, qayğıları daim diqqət mərkəzində idi.

1999-cu ildə müstəqil dövlətimizdə Neft Daşlarının 50 illiyi böyük təntənə ilə qeyd olundu. Hələ 2 il ondan əvvəl Prezident Heydər Əliyevin bu yubileyə hazırlıqla bağlı sərəncam verməsi dəniz neftçilərinə sonsuz hörmət və ehtiramın ifadəsi idi. "ARDNŞ", "Azneft" İB və "Neft Daşları" NQÇİ rəhbərliyinin təşkilatçılığı ilə yubiley mərasimi çox yüksək səviyyədə keçdi. Tədbirin zirvəsi isə möhtərəm Prezidentin Neft Daşları əməkçilərinə ünvanladığı təbrik idi. "Neft Daşlarını XX əsrdən XXI əsrə atılmış bir körpü" adlandıran ulu öndər bu dəniz şəhərinin böyük gələcəyinə inamını ifadə etmişdi.

Dəniz neftçiləri fəxrlə deyirlər ki, bəli, bu gün bu ümidlər doğrulmuşdur. Heydər Əliyev dühasının nurundan bəhrələnib yetkinləşmiş Neft Daşları bu gün dahi öndərimizin arzuladığı işıqlı yoldadır. Dəniz şəhəri günü-gündən abadlaşır, çiçəklənir. Ümummilli lider Heydər Əliyevin şərəfinə salınmış park neftçilərin sevimli istirahət yeridir. "Heydər Əliyev muzeyi" isə neftçilərimizin dahi rəhbərin zəngin irsini, müdrik məktəbini öyrənməsi üçün bir məbəddir. Xüsusilə dövlət bayramı günlərində hamı bu muzeyə üz tutur, ölməz liderimizə öz məhəbbətini və ehtiramını ifadə edir.

Ulu öndər Heydər Əliyevin ucaltdığı bayraq, qurduğu dövlət, miras qoyduğu ideyalar daim onun nurlu adı ilə qoşa yaşayacaq və xalqımızı yeni zirvələrə aparacaq.

*Xeyrulla AĞAYEV,*
*"Neft Daşları" qəzetinin baş redaktoru*